| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **Mərkəzi bankın qərarı** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **03.03.2016** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **16/1** |
| **ADI** | **“Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın və xarici valyutada qiymətli kağızların Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları”nın təsdiq edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **16.03.2016** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **090.060.010** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **23201603030161** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **15.03.2016** |

**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İDARƏ HEYƏTİNİN**

**Q Ə R A R I**

**16/1**

**Bakı şəhəri** **3 mart 2016-cı il**

**"Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın *və xarici valyutada qiymətli kağızların* Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"nın təsdiq edilməsi barədə**[1]

Ölkədə xarici valyuta tənzimlənməsi rejiminin mövcud makroiqtisadi şəraitə uyğunlaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.4-cü və "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci, 9-cu və 11-ci maddələrinə uyğun olaraq

**Q Ə R A R A A L I R:**

1. "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın *və xarici valyutada qiymətli kağızların* Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 18 mart 2002-ci il tarixli qərarı ilə (06 nömrəli protokol) təsdiq olunmuş (02 aprel 2002-ci il tarixli 2778 nömrəli şəhadətnamə) "Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları" və bu Qaydalara 18 fevral 2008-ci il tarixli (06 nömrəli protokol) dəyişikliklər (07 mart 2008-ci il tarixli 3385 nömrəli şəhadətnamə) ləğv edilsin.

3. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Sədr** **Elman Rüstəmov**

**"Təsdiq edilmişdir"**
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar 16/1
"03" mart 2016-cı il

**Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın *və xarici valyutada qiymətli kağızların* Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları**[2]

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci, 9-cu və 11-ci maddələrinə, "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun 13-1-ci maddəsinə, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.10.2013-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər (banklar və xarici bankların yerli filialları istisna olmaqla) tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına nağd şəkildə gətirilməsi və Azərbaycan Respublikasından nağd şəkildə çıxarılması, *habelə xarici valyutada qiymətli kağızların Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması* qaydalarını müəyyən edir.[3]

1.3. Bu Qaydalarda istifadə olunan "xarici valyuta" , *"xarici valyutada qiymətli kağızlar"*, "rezident", "qeyri-rezident" və "müvəkkil banklar" anlayışları "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda, "poçt rabitəsinin milli operatoru" anlayışı "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda verilən mənaları ifadə edir.[4]

*1.4. Xarici valyutada olan qiymətli kağızlarla bağlı bu Qaydaların tələbləri çeklərə və digər ödəniş sənədlərinə də şamil edilir.*[5]

## 2. Xarici valyutanın *və xarici valyutada qiymətli kağızların* Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması[6]

2.1. Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər xarici valyutanı *və xarici valyutada qiymətli kağızları nominal məbləğindən asılı olmayaraq* gömrük prosedurlarına əməl etməklə məhdudiyyət olmadan Azərbaycan Respublikasına gətirə bilərlər.[7]

2.2. Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər məbləği 10000 (on min) ABŞ dolları ekvivalentinədək olan

*nağd xarici valyutanı, habelə xarici valyutada qiymətli kağızları* gömrük orqanında şifahi formada bəyan etməklə Azərbaycan Respublikasından ~~nağd şəkildə~~ çıxara bilərlər.[8]

2.3. Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər 10000 (on min) ABŞ dolları ekvivalenti məbləğindən 50000 (əlli min) ABŞ dolları ekvivalenti məbləğinədək olan xarici valyutanı onun əvvəllər Azərbaycan Respublikasına nağd şəkildə gətirilməsini təsdiq edən gömrük sənədlərini və yazılı formada bəyannaməni gömrük orqanına təqdim etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.

*2.3-1. Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər 10000 (on min) ABŞ dolları ekvivalenti məbləğindən artıq xarici valyutada qiymətli kağızları əvvəllər Azərbaycan Respublikasına gətirilməsini təsdiq edən gömrük sənədlərini və yazılı formada bəyannaməni gömrük orqanına təqdim etməklə Azərbaycan Respublikasından çıxara bilərlər.*[9]

2.4. Bu Qaydaların 2.2-ci və 2.3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla bütün digər hallarda xarici valyutanın rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikasından çıxarılması yalnız müvəkkil banklar və poçt rabitəsinin milli operatoru vasitəsilə köçürmə yolu ilə həyata keçirilə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə qərarın adına və birinci hissəsinə "**xarici valyutanın**" sözlərindən sonra "**və xarici valyutada qiymətli kağızların** " sözləri əlavə edilmişdir.

[2] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"n adına "**xarici valyutanın**" sözlərindən sonra "**və xarici valyutada qiymətli kağızların** " sözləri əlavə edilmişdir.

[3] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"n 1.2-ci bəndinə "**çıxarılması**" sözündən sonra "**, habelə xarici valyutada qiymətli kağızların Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması**" sözləri əlavə edilmişdir.

[4] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"n 1.3-cü bəndinə "**xarici valyuta**" sözlərindən sonra "**, "xarici valyutada qiymətli kağızlar"** sözləri əlavə edilmişdir.

[5] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"na yeni məzmunda 1.4-cü bənd əlavə edilmişdir.

[6] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"n 2-ci hissəsinin adına "**Xarici valyutanın**" sözlərindən sonra "**və xarici valyutada qiymətli kağızların** " sözləri əlavə edilmişdir.

[7] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"n 2.1-ci bəndinə "**xarici valyutanı**" sözlərindən sonra "**və xarici valyutada qiymətli kağızları nominal məbləğindən asılı olmayaraq** " sözləri əlavə edilmişdir.

[8] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"n 2.2-ci bəndində "**xarici valyutanı**" sözləri "**nağd xarici valyutanı, habelə xarici valyutada qiymətli kağızları** " sözləri ilə əvəz edilmişdir və həmin bənddən "**nağd şəkildə**" sözləri çıxarılmışdır.

[9] 24 fevral 2023-cü il tarixli **11/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202302240112, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 28 fevral 2023-cü il)** ilə "Rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyutanın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları"na yeni məzmunda 2.3-1-ci bənd əlavə edilmişdir.